# TWINNING NEWSLETTER

**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

2-ci buraxılış, Dekabr 2020-ci il

## Mövzular

- ✓ Komponent 2 və 3 üzrə İşçi Planı
- ✓ Məlumatların ötürülməsi prosesi və SVDR-in yenilənməsi prosesi üzrə fəaliyyət
- ✓ Məlumatların idarə edilməsi standartları üzrə tələblərə dair fəaliyyət
- ✓ KOB indikatorlarının cari və hədəflənən səviyyəsi üzrə fəaliyyət
- ✓ Layihənin İdarəetmə Komitəsinin 2-ci iclası

## Gələcək fəaliyyətlər

- ✓ Müəssisə və müəssisə qrupları üzrə fəaliyyət
- ✓ Məlumat mənbələri və müəssisə qruplarının yaradılması üzrə seminar
- ✓ Biznes demoqrafiyasına üzrə seminar
- ✓ Struktur Biznes Statistikasının (SBS) cari və hədəflənən səviyyəsi üzrə fəaliyyət
- ✓ KOB indikatorları üzrə məlumat mənbələrinin müəyyən edilməsi
- ✓ İM-dən SBS-də istifadəyə dair fəaliyyət
- ✓ Komponent 3-də təlimin hazırlanması

## Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq laihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.

**Nəşr etdi:** Tvinninq ofisi
**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə:** http://www.stat.fi/aztwinning
**Bizi izləyin:**
**Xəbər bulletenimizə abunə olmaq istəyirsinizsə, gultakin.babayeva@stat.fi e-poçtuna müraciət göndərməyinizi xahiş edirik.**

## Layihə xəbərləri

2-28 oktyabr 2020-ci il tarixində Tvinninq layihəsi çərçivəsində **2-ci Fəaliyyət** baş tutmuşdur. Bu fəaliyyət çərçivəsində Finlandiya və Litva Statistika İdarələrini təmsil edən xanım Saara Roine, xanım Antanina Valiulienė və cənab Andrius Čiginas, eləcə də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin aparıcı nümayəndələrinin iştirak ilə dörd distant sessiya keçirilmiş və 2-ci Komponent və onun alt komponentləri üzrə iş planı hazırlanmışdır. Nəticədə, biznes statistikası, məlumatların toplanılması prosesi, imputasiya, qiymətləndirmə və cari çağırışlarla bağlı hazırki vəziyyət nəzərdən keçirilmiş, Nəticə 4 və 5 üzrə müvafiq indikatorlara malik fəaliyyətlər siyahısı hazırlanmış və qəbul edilmişdir.




Komponent 3 və onun alt komponentləri üzrə İş Planının hazırlanması məqsədi ilə Finlandiyanın Statistika İdarəsindən cənab Jukka Hoffren və Finlandiyanın İctimai İdarəetmə İnstitundan cənab Timo Kuntsi tərəfindən 3.0 saylı Fəaliyyət həyata keçirilmişdir. Distant sessiyalar müddətində ekspertlər və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri arasında benefisiar təşkilatlarının işçi heyətinin statistik tərtibat, təhlil, hesabatvermə və yayımlanma üzrə potensialının artırılması üçün müzakirələr aparılmışdır. Komponent çərçivəsində Bakıda üç təlim kursunun və Aİ üzv dövlətlərinə üç tədris səfərinin keçirilməsi planlaşdırılır.




Bu nəşrin məzmunu Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Komponent 1-in 1-ci **Nəticəsi üzrə həyata keçirilən 1.1.A və 1.2.A saylı Fəaliyyətlər** üzrə səkkiz distant sessiyadan ibarət missiyalar 3-24 noyabr və 1-17 dekabr 2020-ci il tarixi aralığında cənab Fred Demollin (Niderland Mərkəzi Statistika Bürosu), xanım Daliutė Kavaliauskienė (Litva Statistika Departamenti) və cənab Timo Laukkanen (Finlandiya Statistika İdarəsi) tərəfindən həyata keçirilmişdir. 1.1.A saylı Fəaliyyətin məqsədi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən (DVX) məlumatların ötürülməsi prosesinin və Statistik Vahidlərin Dövlət Reyestrinin (SVDR) aparılması və yenilənməsi prosesinin cari vəziyyətinin ekspertlər tərəfindən qiymətləndirilməsi olmuşdur. Fəaliyyətin sonunda qısa müddətli ekspertlər (QME) İnzibati Məlumat təminatçıları və istifadəçiləri, xüsusən DVX və DSK arasında əməkdaşlığın yaxşılaşdırılmasına, eləcə də təsnifatlardan istifadənin ahəngləşdirilməsinə dair tövsiyyələr hazırladılar. 1.2.A saylı fəaliyyətin məqsədi statistik məlumatlar istehsal edən bütün qurumlarda vahid standartların istifadəsi və yenilənməsi üçün işçi metodların işlənib hazırlanması olmuşdur. Dörd distant sessiyanın nəticəsi olaraq, QME-lər Dövlət Statistika Komitəsi və Dövlət Vergi Xidməti arasında daha sıx məlumat mübadiləsi, məlumat mübadiləsi keyfiyyətinin yaxşılaşdırılması və digər iş metodologiyalarına dair razılaşmanın əldə olunması istiqamətində benefisiar qurumlar üçün tövsiyələr hazırlamış və təqdim etmişlər.



Finlandiya Statistika İdarəsinin ekspertləri xanım Ulla Virtanen və Merja Myllymäki tərəfindən Kiçik və orta biznes (KOB) indikatorlarının cari və hədəf vəziyyətinə həsr olunan Komponent 2 çərçivəsində **5.1.A saylı ilk fəaliyyət** həyata keçirilmişdir. Missiyanın məqsədi KOB indikatorlarının siyahısının Aİ/İƏİT təriflərinə uyğun olaraq genişləndirilməsi olmuşdur. Dörd distant sessiya nəticəsində qısamüddətli və ortamüddətli KOB indikatorlarının yeni siyahısı ərsəyə gətirilmişdir. Həmin siyahı istifadəçilərin müəyyən edilmiş ehtiyaclarına, Aİ tələblərinə və potensial məlumatın əlçatanlığına əsasən hazırlanmışdır.



**Tvinninq layihəsinin İdarəetmə Komitəsinin ikinci iclası** telekonfrans formatında keçirilmişdir. İclasda Aİ Nümayəndəliyinin nümayəndəsi, layihə və komponent rəhbərləri, Rezident Tvinninq müşaviri və onun tərəf müqabili, həmçinin əlaqədar maraqlı tərəflər iştirak etmişdir. İclasda aşağıdakı mövzular müzakirə edilmişdir:

1. Layihənin gedişatına dair hesabat
2. Kommunikasiya və İşıqlandırma Planına dair qısa məlumat
3. Layihənin növbəti mərhələsində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlərin təqdimatı və müzakirəsi
4. Üzv Dövlətdən namizədliyi yeni layihə rəhbəri qismində təklif olunan xanım Hannele Orjalanın təqdim edilməsi

Bundan əlavə, İK üzvləri layihənin uzadılması, büdcə və ayırmalar üzrə təkliflər, xəbər bulleteninə gələcəkdə planlaşdırılan tədbirlərə dair yeni hissənin əlavə edilməsi kimi layihə ilə bağlı digər məsələləri müzakirə etdilər.



**Bu nəşrin məzmunu Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir**

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir